# İxtisasartırma təhsili modernləşdirmənin istiqamətlərindən biri kimi

**Aysel Qulaməli qızı Balaşova**
*Bakı Qızlar Universiteti*
**E-mail:** b.aysel2020@gmail.com

**Rəyçilər:** p.ü.e.d., prof. İ.H. Cəbrayılov,
p.ü.f.d. P.M. Həsənova

**Açar sözlər:** ixtisasartırma təhsili, innovasiya, yeni təlim metodları, müasir texnologiyalar
**Ключевые слова:** образование по повышению квалификации, инновация, новые методы обучения, современные технологии
**Key words:** professional education, innovation, new teaching methods, modern technologies

Təhsilə yönəldilən dövlət vəsaitinin ilbəil artırılması Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təhsili dövlət siyasətinin əsas prioritetlərindən biri hesab etməsi ilə birbaşa bağlıdır. "Təhsil əsri" elan edilən XXI əsrdə yüksək intellektə malik insan kapitalının formalaşması və güclü iqtisadiyyatın qurulmasında onun rolu heç vaxt indiki qədər aktual olmamışdır. Prezident İlham Əliyev bununla bağlı deyir: "Biz maddi dəyərlərimizi, iqtisadi potensialımızı insan kapitalına çevirməliyik" (1, s. 7).

Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan təhsil siyasətini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının diqqət və qayğısı sayəsində hazırda təhsil sistemində önəmli islahatlar həyata keçirilir, müxtəlif problemlər üzrə 16 Dövlət Proqramı yerinə yetirilir. Bunlardan "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiyası", "2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı", "Təhsil sisteminin informasiyalaşdırılması Proqramı (2008-2012-ci illər)", "Elmin inkişafı üzrə Milli strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramı (2009-2015-ci illər)" xüsusi yer tutur.

"Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyasın"da keyfiyyət nəticələri və əhəmiyyətinə görə dünya ölkələri sırasında aparıcı mövqe tutan, səriştəli müəllim və təhsil menecerlərinə, qabaqcıl texnologiyalara əsaslanan infrastruktura malik təhsil sisteminin yaradılması üçün beş strateji istiqamətdə genişmiqyaslı tədbirlər nəzərdə tutulmuşdur. Həmin istiqamətlərdən ikincisi "Təhsil sahəsində insan resurslarının müasirləşdirilməsi"ni nəzərdə tutur. Bu istiqamət innovativ təlim metodlarını tətbiq edən, təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən səriştəli təhsilverənin formalaşmasına xidmət edir və özündə təhsilverənlərin peşəkarlığının yüksəldilməsi, təhsilalanların nailiyyətlərinin qiymətləndirilməsi üzrə yeni sistemlərin qurulması, təhsilalanların istedadının aşkar olunması inkişafı ilə bağlı, habelə xüsusi qayğıya ehtiyacı olanlar üçün inklüziv təlim metodologiyasının yaradılmasını ehtiva edir (5, s. 6).

Mövcud qaydalara əsasən bütün təhsil müəssisələri ilə müqavilələr imzalanıb, qrafiklər təsdiq olunub. 2013-2014-cü dərs ilində respublikamızda fəaliyyət göstərən 66 rayon (şəhər) təhsil şöbəsindən 53-ü, 60 orta ixtisas təhsili müəssisəsindən 17-i, 108 ilk-peşə ixtisas təhsili müəssisəsindən 19-u, 17 respublika tabeliyində olan ümumtəhsil müəssisəsindən 2-i və 21 ali təhsil müəssisəsi ilə müqavilə imzalanmışdır. Təəssüf hissi ilə qeyd etməliyik ki, hələ də ixti-

sasartırma təhsilini 30 il bundan qabaqkı təhsil hesab edənlər vardır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 6 sentyabr 2010-cu il tarixli 163 nömrəli qərarı ilə "Əlavə təhsilin məzmunu, təşkili və onun hər hansı bir istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi qaydaları" təsdiq edilmişdir. Bu qərara əsasən respublikamızda əlavə təhsilin bir istiqaməti olan ixtisasartırma təhsilinin tamamilə yeniləşdirilərək, dövrün tələbatına uyğunlaşdırılması aktuallaşıb. Yaxın gələcəkdə ixtisasartırma təhsilinin kredit-modul sisteminə keçməsi gözlənilir. Yəni ənənəvi ixtisasartırma təhsili artıq öz əhəmiyyətini itirir. Daha çevik, daha müasir və stimullaşdırıcı amillərə əsaslanan ixtisasartırma təhsilinə ehtiyac artır.

İnformasiya cəmiyyətinin və rəqabətə davamlı yüksək texnologiyalı milli iqtisadiyyatın yaradılması bir sıra ölkələrin dövlət siyasətinin əsas istiqamətinə çevrilib. Bu ölkələrdə informasiya və kommunikasiya texnologiyaları (İKT) sahəsi inkişafın ən önəmli amili kimi çıxış edir. Bu sahə dövlətlərin siyasi, iqtisadi və sosial fəaliyyətinə aktiv təsir edərək iqtisadiyyatın və ictimai münasibətlərin qloballaşmasını şərtləndirir. İnformasiya cəmiyyətinin təhsil sisteminin necə qurulması, təhsilin modernləşdirilməsi üçün hansı texnologiyalardan istifadə edilməsi hazırda ən aktual məsələlərdən biridir. Hazırda respublikamızda bütün sahələrdə mütəxəssislərin informasiya və kommunikasiya texnologiyaları ilə işləmək və onlardan düzgün istifadə etmək bacarığına çox böyük önəm verilir. İKT biliyinə mükəmməl yiyələnməyin ən yaxşı yolu isə elə orta məktəbdən başlayır. Qeyd etmək lazımdır ki, ümumilikdə təhsil sisteminin İKT əsasında təkmilləşdirilməsi informasiya cəmiyyətinin əsas xüsusiyyətlərindən biridir.

İxtisasartırma təhsilinin kredit sistemi müəyyən ixtisasartırma proqramının həcmini və məzmununu əks etdirən və ədədlə ifadə olunan şərti anlayışdır. İxtisasartırma təhsili üzrə bir təhsil krediti proqramın 6 təlim saatına bərabər tutulur. Tədris olunan hər bir ixtisasartırma proqramını mənimsəyən və gözlənilən təlim nəticələrini əldə etdiyini nümayiş etdirən dinləyicilərə müvafiq təhsil kreditləri verilir. Bir ixtisasartırma dövründə modulların hər biri üzrə toplanılan təhsil kreditlərinin minimum həddi ixtisasartırma təhsilinin kurikulum çərçivəsi ilə müəyyən edilir (4, s. 5). İxtisasartırma proqramlarının və onları həyata keçirən əlavə təhsil müəssisələrinin seçilməsi mərkəzi icra hakimiyyəti orqanları, bələdiyyələr və özəl qurumlar tərəfindən müəyyənləşdirilmiş formada, kadrların işlədiyi müəssisələr və yerli idarəetmə orqanı səviyyələrində həyata keçirilir. Kadrlar bir ixtisasartırma dövrü ərzində nəzərdə tutulan minimum krediti toplamaq şərtilə hər bir modula daxil olan proqramları və təlim vaxtını seçmək hüququna malikdirlər. Müəssisələrin və yerli özünüidarəetmə orqanlarının rəhbərləri fərdi ehtiyac və maraqların nəzərə alınması yolu ilə ixtisasartırma proqramlarının seçilməsində kadrlara kömək etməlidirlər.

Əlavə təhsil hər bir vətəndaşın fasiləsiz təhsil almaq imkanını təmin edir və insan potensialının inkişafının, kadrların intellektual və peşə hazırlığı səviyyəsinin yüksəldilməsi və təkmilləşdirilməsinin, onların daim dəyişən və yeniləşən əmək şəraitinə uyğunlaşdırılmasının, yaşlı vətəndaşların ölkənin sosial, iqtisadi, siyasi və mədəni həyatında fəal və səmərəli iştirakının təmin edilməsi vəzifələrini daşıyır.

Azərbaycan Respublikasında əlavə təhsil ixtisasartırma, kadrların yenidən hazırlanması, stajkeçmə və kadrların təkmilləşdirilməsi, təkrar ali təhsil və orta ixtisas təhsili, dərəcələrin yüksəldilməsi və yaşlıların təhsili istiqamətlərini əhatə edir. Əlavə təhsil ixtisasartırma və yenidənhazırlanma qurumlarında, təhsil müəssisələrində yaradılmış müvafiq strukturlarda, stajkeçmə və peşə hazırlığı kurslarında və bu sahə üzrə fəaliyyətinə xüsusi razılıq verilmiş digər müəssisələrdə həyata keçirilir. İxtisasartırma təhsili əlavə təhsilin bir istiqaməti olmaqla, ali, orta ixtisas və ilk peşə-ixtisas təhsili pillələrinin hər hansı birini bitirmək haqqında dövlət sə-

nədi olan kadrların fasiləsiz təhsil almaq imkanını təmin etmək məqsədi ilə əlavə təhsil müəssisələri tərəfindən həyata keçirilən təhsil növüdür. İxtisasartırma təhsilinin əsas məqsədi hər bir işçinin və ya mütəxəssisin ixtisası üzrə intellektual və peşə hazırlığı səviyyəsinin yüksəldilməsini və təkmilləşdirilməsini, daim dəyişən və yeniləşən əmək şəraitinə uyğunlaşdırılmasını, ölkənin sosial, iqtisadi, siyasi və mədəni həyatında fəal və səmərəli iştirakını təmin etməkdir. İxtisasartırma təhsilinin kurikulum çərçivəsi bir ixtisasartırma dövrü üçün nəzərdə tutulmuş təlimin məzmununu müəyyən edən sənəddir. Kurikulum çərçivəsində ixtisasartırma modulları, hər modul üzrə ixtisasartırma proqramlarının siyahısı, proqramların həyata keçirilmə müddəti və müvafiq ixtisasartırma təhsili kreditlərinin miqdarı verilir. İxtisasartırma təhsilinin kurikulum çərçivəsi mərkəzi icra hakimiyyəti orqanları, bələdiyyələr və özəl qurumlar tərəfindən təsdiq edilir. Peşə fəaliyyəti sisteminin, bu və ya digər kateqoriyadan olan kadrların tələbat və ehtiyacları nəzərə alınaraq, kurikulum çərçivəsinin məzmunu mütəmadi olaraq yeniləşdirilir və təkmilləşdirilir.

Təlim metodu dedikdə müəllimlə və ya istehsalat təlimi ustası ilə təhsilalanların elə bir birgə təlim fəaliyyəti nəzərdə tutulur ki, sonda öyrənənlər peşələrinə dair biliklərə, bacarıqlara və vərdişlərə yiyələnirlər, eyni zamanda birgə fəaliyyət onların təkmilləşməsinə və təlimlərdə əldə etdikləri bilik və bacarıqlarını inkişaf etdirmələrinə istiqamətləndirir. Təlim metodlarına başqa cür yanaşmalar da mövcuddur. Belə ki, təlim metodları təkcə öyrədənlərlə şagirdlərin ümumi məqsədə yönələn qarşılıqlı fəaliyyəti deyil, eyni zamanda təlim prosesinin nəticəyönlü və inkişafyönlü başa çatmasının təminatçısı kimi də yanaşıla bilər. Təlim metodunun bu cür şərh olunmasına nümunə kimi praktik təlimləri göstərə bilərik. Yəni şagirdlərdə peşəyə dair biliklərin və bacarıqların aşılanması onlar üçün yaradılmış xüsusi şəraitdə: təhsil müəssisəsinin emalatxana və laboratoriyalarında və ya birbaşa istehsal müəssisəsində həyata keçirilir. Başqa sözlə, şagirdlər təhsil müəssisəsində əldə etdikləri ilkin bilik və bacarıqları istehsalatda birbaşa praktik işlərin icrasına tətbiq edərək öz peşə bacarıqlarını inkişaf etdirir və təkmilləşdirirlər. İxtisasartırma təhsili üzrə təlim modulları dedikdə, modulların sayı və modullar üzrə təlim saatlarının tələb olunan minimum həcmi mərkəzi icra hakimiyyəti orqanları, bələdiyyələr və özəl qurumlar tərəfindən müəyyən edilir.

Gələcəyə gedən yolun düzgün seçilməsində malik olduğun dəyərlərin, toplanmış təcrübənin, kadr potensialının peşəkarlıq səviyyəsinin, idarəetmə subyektlərinin əlaqə formalarının, maliyyə imkanlarının, eləcə də mütərəqqi dünya təcrübəsinin hərtərəfli öyrənilməsinin böyük əhəmiyyəti vardır. Azərbaycan təhsilinin mövcud vəziyyətinin istər milli, istərsə də beynəlxalq qurumlar tərəfindən qiymətləndirilməsinə dair hesabatların hamısında birmənalı şəkildə vurğulanır: "Təhsilin inkişafı istiqamətində mühüm nailiyyətlər əldə edilmiş, həyata keçirilən dövlət proqramları çərçivəsində ölkənin bütün regionlarında ümumi təhsilin infrastrukturu əhəmiyyətli şəkildə yeniləşdirilmiş, təhsilin müasir tələblərə cavab verən hüquqi-normativ bazası yaradılmışdır. Respublikamızda tədris prosesinin təkmilləşdirilməsi üçün yeni, daha mükəmməl metodların tətbiq edilməsi yüksək intellektual hazırlığa, hərtərəfli dünyagörüşə malik olan, qazandığı biliklərdən istifadə etməyi bacaran, milli-mənəvi və ümumbəşəri keyfiyyətlərə yiyələnmiş kamil şəxsiyyətin, əsl vətəndaşın yetişdirilməsinə xidmət edir." "Azərbaycan Respublikasında Təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda deyilir: "Müəllim amili təhsilalanın öyrənməsi və inkişafı, nailiyyətlərin monitorinqi prosesində həlledici rol oynayır" (1, s. 7).

Təhsilin keyfiyyətini yüksəltmək və onun dinamik inkişafını təmin etmək üçün yeni pedaqoji texnologiyalardan, yeni təlim metodlarından istifadəyə üstünlük verilir. Təlimdə tətbiq edilən metodlar şagirdlərə proqram dairəsində biliklərin verilməsi ilə bərabər, həm də onların hərtərəfli inkişaf etmiş şəxsiyyət kimi formalaşmasına istiqamətləndirilir. Burada təhsilverən-

lərin üzərinə çox böyük vəzifələr düşür. Çünki məktəb təcrübəsində yeni təlim metodlarının tətbiqində uğurlarla yanaşı, nöqsanların da olmasında təlim metodlarının təsadüfi seçilməsi və ya yanlış tətbiqinin, dərsdə reproduktiv (məlumatverici) metodlara üstünlük verilməsinin rolu az deyildir. Burada təhsilalanların yaradıcılıq qabiliyyətlərini inkişaf etdirə biləcək metodların düzgün tətbiq edilməməsinin, müasir təlim üsullarından istifadə edərkən dərsin didaktik məqsədinin və fənnin xüsusiyyətlərinin nəzərə alınmamasının da böyük təsiri vardır. Deməli, müəllimlərin bir çoxu hələ də ya yeni təlim metodlarının tətbiqinə yaradıcı yanaşmır, ya bu sahədə nəzəri bilikləri qənaətbəxş deyil, ya da onların mahiyyətini olduğu kimi dərk edə bilməmişdir.

**Məqalənin aktuallığı.** Respublikamızda əlavə təhsilin bir istiqaməti kimi ixtisasartırma təhsilinin tamamilə yeniləşdirilərək, dövrün tələbatına uyğunlaşdırılması əsas məsələlərdəndir. Yaxın dövrdə ixtisasartırma təhsilinin kredit-modul sistemınə keçməsi planlaşdırılır. Bununla da daha çevik, müasir və stimullaşdırıcı amillərə əsaslanan ixtisasartırma təhsilinə ehtiyac artır. Məqalə də məhz belə vacib və zəruri bir problemə həsr edildiyindən onu aktual saymaq olar.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə təhsil sistemində aparılan islahatlardan söhbət açılmaqla, həyata keçirilən müxtəlif problemlər üzrə Dövlət Proqramlarının əsas istiqamətləri göstərilir, “Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası”na uyğun olaraq müasir təhsil sisteminin yaradılması üçün nəzərdə tutulan tədbirlərdən söhbət açılır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən orta ixtisas məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Azərbaycan Respublikası Təhsil Sahəsində İslahat Proqramı», «Azərbaycan müəllimi» qəzeti, 2008, 17 oktyabr, s. 7.
2. Mehrabov A. Təhsilin demokratikləşməsi: problemlər, vəzifələr // Təhsil, mədəniyyət və incəsənət, 2001, № 4.
3. Mehrabov A. Şəxsiyyətyönümlü təhsil standartlarının hazırlanma texnologiyası. //Azərbaycan məktəbi, 2005, № 4.
4. https://edu.gov.az/az/additional-education
5. http://www.tipii.edu.az/az/page/2-umumi-malumat
6. https://www.almazhasret.com/?p=3518

**А.Г. Балашова**

## Непрерывное образование как одно из направлений модернизации

### Резюме

Одна из основных задач в нашей стране - полностью обновить обучение без отрыва от производства как направление дополнительного образования и адаптировать его к требованиям времени. В ближайшее время планируется перевод обучения без отрыва от производства на кредитно-модульную систему. Однако растет потребность в более

гибком, современном и стимулирующем обучении без отрыва от работы.
В статье рассказывается о реформах в системе образования, основных направлениях Государственных программ по различным проблемам, мерах, предусмотренных для создания современной системы образования в соответствии с «Государственной стратегией развития образования в Азербайджанской Республике»

**A.G. Balashova**

## Continuing education as one of the directions of modernization

## Summary

One of the main issues in our country is to completely modernize in-service training as a direction of additional education and adapt it to the needs of the time. In the near future, it is planned to transfer in-service training to the credit-module system. However, there is a growing need for in-service training based on more flexible, modern and stimulating factors.
The article talks about the reforms in the education system, the main directions of the State Programs on various problems, the measures envisaged for the establishment of a modern education system in accordance with the "State Strategy for the Development of Education in the Republic of Azerbaijan."

**Redaksiyaya daxil olub:** 07.09.2021